# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

26 iyun 2019-cu il
Çərşənbə

№ 24 (3439)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV RAMİL USUBOVU TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ VƏZİFƏSİNƏ TƏYİN OLUNMASI MÜNASİBƏTİLƏ QƏBUL EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Ramil Usubovu Təhlükəsizlik Şurasının katibi vəzifəsinə təyin olunması münasibətilə qəbul edib.***

***Dövlətimizin başçısı Ramil Usubovun uzun illər Daxili İşlər naziri vəzifəsini uğurla icra etdiyini bildirdi. Bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunduğunu vurğulayan Prezident İlham Əliyev ölkə qarşısında duran vəzifələrin lazımi səviyyədə icrası üçün təhlükəsizlik tədbirlərinin daim gündəlikdə olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifənin öhdəsindən layiqincə gələcəyinə əminliyini ifadə etdi və ona fəaliyyətində uğurlar arzuladı.***



***Ramil Usubov ona etimad göstərib Təhlükəsizlik Şurasının katibi kimi məsul vəzifəyə təyin edilməsi ilə əlaqədar dövlətimizin başçısına minnətdarlığını ifadə etdi. O bildirdi ki, Daxili İşlər naziri vəzifəsində çalışdığı uzun illər ərzində rəhbərlik etdiyi nazirlik öz fəaliyyətində xalqımızın ümummilli lideri Heydər Əliyevin, sonrakı dövrlərdə isə Prezident İlham Əliyevin yüksək diqqət və qayğısını daim hiss edib. Ramil Usubov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlərin böyük əhəmiyyət daşıdığını xüsusi olaraq vurğuladı. O, Təhlükəsizlik Şurasının katibi vəzifəsində ona göstərilən yüksək etimadı doğrultmaq üçün səylərini əsirgəməcəyini bildirdi.***



## R.İ.USUBOVUN AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ VƏZİFƏSİNDƏN AZAD EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Daxili İşlər naziri vəzifəsindən azad edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 20 iyun 2019-cu il.*



## V.S.EYVAZOVUN AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VƏZİFƏSİNDƏN AZAD EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının Daxili İşlər nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 20 iyun 2019-cu il.*

## R.İ.USUBOVUN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA TƏHLÜKƏSİZLİK ŞURASININ KATİBİ TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 20 iyun 2019-cu il.*

## V.S.EYVAZOVUN AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının Daxili İşlər naziri təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 20 iyun 2019-cu il.*

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ

*Əziz həmkarlar!*

*Son 25 ildən artıq bir müddətdə sıralarında çiyin-çiyinə birgə xidmət etdiyimiz daxili işlər orqanları ulu öndər Heydər Əliyevin rəhbərliyi altında formalaşaraq mətinləşmiş, zamanın çətin sınaqlarından şərəflə çıxmış, Vətənə və xalqa xidmət missiyasını sədaqətlə yerinə yetirmişdir. Dövlətin Konstitusiya quruluşunun əsaslarının müdafiəsində xüsusilə fərqlənərək onun dayaqlarından birinə çevrilmiş, dəyərli ənənələr yaratmışdır.*

*Sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əvəzsiz diqqət və qayğısı sayəsində daha da inkişaf etmiş, müasirləşmişdir. Qloballaşan dünyanın yeni çağırış və təhdidlərinə adekvat cavab verməyə qadir olan daxili işlər orqanları bu gün xalqa, Vətənə, dövlətə və andına sadiqliyi ilə seçilir, Zati-alilərinin inam və etimadını doğruldur. Eyni zamanda, cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunması sahəsində üzərinə düşən vəzifələri, qarşıya qoyulmuş tapşırıqları yüksək məsuliyyət hissi və ləyaqətlə yerinə yetirərək möhtərəm Prezidentin rəhbərliyi altında ölkəmizin ən təhlükəsiz məkanlardan birinə çevrilməsi üçün olduqca əhəmiyyətli bir fəaliyyət ortaya qoyur.*

*Ölkə başçısının cari ilin iyun ayının 20-də imzaladığı sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi kimi yüksək və məsul dövlət vəzifəsinə təyin olunmağımla bərabər, uzun illər birlikdə çalışdığım, xalqına, dövlətinə, Prezidentinə bağlılığı və sədaqəti, böyük peşəkarlığı, idarəçilik və rəhbərlik bacarığı ilə seçilən nazirin birinci müavini polis general-leytenantı Vilayət Eyvazovun Daxili İşlər naziri təyin edilməsi məni xüsusilə sevindirdi.*

*İnanıram ki, Siz, Daxili İşlər naziri Vilayət Eyvazovun rəhbərliyi ilə bundan sonra da doğma Azərbaycana əzmlə xidmət edəcək, sabitliyin, vətəndaşlarımızın qanunla qorunan hüquq və azadlıqlarının keşiyində dəyanətlə duracaqsınız. Milli maraqları, dövlətçilik mənafelərini daim uca tutacaq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin davamlı inkişafı naminə həyata keçirdiyi mühüm tədbirlərə, xalqımızın dinc həyatının və asayişinin qorunmasına layiqli töhfələr verəcəksiniz.*

*Fəxr edirəm ki, respublikamızda əmin-amanlığın, sabitliyin bərqərar olunmasında nazir kimi mənə hər zaman yardımçı oldunuz, cəmiyyətdə polisin və Daxili Qoşunların nüfuzunun yüksəlməsi üçün səy və bacarığınızı əsirgəmədiniz. Gecəli-gündüzlü, yorulmaz və fədakar xidmətiniz daxili işlər orqanlarına xalqımız qarşısında şərəf və başıucalıq gətirdi. Bütün bunlara görə Sizin hər birinizə dərin təşəkkürümü bildirir, möhkəm cansağlığı, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə yeni-yeni uğurlar arzulayıram.*

*Ən xoş arzularla,*

***Ramil Usubov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi***
*21 iyun 2019-cu il.*

**Dövlətimizin başçısı iyunun 24-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

***İyunun 24-də Bakıda, Heydər Əliyev Mərkəzində Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə BMT-nin Dövlət Xidmətləri Forumu işə başlayıb.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak edib.***

***İyunun 20-də Azərbaycan Prezidenti İlham Əliyev “Azərsilah” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edilməsi barədə fərman imzalayıb.***

❖❖❖❖❖

**İyunun 20-də dövlətimizin başçısı Mədət Qəzənfər oğlu Quliyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi və onun Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziri təyin olunması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***İyunun 20-də ölkəmizin rəhbəri İlham Əliyev Əli Nağı oğlu Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı iyunun 21-də Famil Front oğlu Mustafayevin Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri iyunun 22-də dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**İyunun 22-də Azərbycan Prezidenti İlham Əliyev dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Süleyman Abbas oğlu İsmayılova "Əməkdar dövlət qulluqçusu" fəxri adının verilməsi haqqında sərəncam imzalayıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, polis general-leytenantı Vilayət Eyvazov iyunun 22-də Quba Rayon Polis Şöbəsində növbəti qəbul keçirib.**

Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı şəhər və rayonlarının qəbul üçün müraciət edən 22 sakini ilə görüşən Daxili İşlər naziri onların polis orqanlarının fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və xidmət, həmçinin ərazi polis orqanlarının rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb. Digərləri də baxılaraq zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyatı qurumlara müvafiq göstərişlər verilməklə icraya yönəldilib.

Qəbulda iştirak edənlər polis general-leytenantı Vilayət Eyvazovu Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik edərək yerlərdə vətəndaşlarla dövlət məmurlarının görüşməsi, onların müraciətlərinə, ərizə və şikayətlərinə operativ, həssaslıqla yanaşılması barədə dövlət başçısının məlum tapşırığının yüksək səviyyədə icrasına, problemlərinə hər zaman xüsusi diqqət və qayğı göstərilməsinə görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər. Onun respublikamızın tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini bundan sonra da dəstəkləyəcəklərini vurğulayıblar.

*22 iyun 2019-cu il.*



**İyunun 22-də Daxili İşlər Nazirliyində nazir müavinlərinin, baş idarə, idarə və paytaxtın polis orqanları rəislərinin iştirakı ilə Naziryanı əməliyyat müşavirəsi keçirilib.**

**Müşavirəni giriş sözü ilə açan Daxili İşlər naziri, polis general-leytenantı Vilayət Eyvazov respublikanın daxili işlər orqanlarına 25 ildən artıq bir müddətdə rəhbərlik etmiş general-polkovnik Ramil Usubovun Təhlükəsizlik Şurasının katibi kimi yüksək dövlət vəzifəsinə təyin edilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daxili işlər orqanlarına böyük etimadının daha bir əyani ifadəsi olduğunu vurğulayıb.**

Nazir V.Eyvazov cənab Prezidentin ölkədə asayişin və təhlükəsizliyin təmin edilməsi sahəsində görülən işləri və əldə edilmiş nəticələri yüksək qiymətləndirdiyini xüsusi qeyd edib, qazanılan uğurlarla bərabər, əməliyyat-xidməti fəaliyyətdə bəzi nöqsan və çatışmazlıqların mövcudluğunu da xatırladaraq onların həlli yollarını göstərib, bu istiqamətdə tapşırıq və tövsiyələrini verib.

Qarşıya qoyulmuş mühüm vəzifələrdən söz açan Daxili İşlər naziri bu sırada polisin qanunla müəyyən edilmiş vəzifələrinin hər bir struktur qurumda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirməsinin, əməkdaşların etik davranış qaydalarına ciddi əməl etmələrinin, bu işə nəzarətin gücləndirilməsinin zəruriliyini və müvafiq istiqamətlərdə fəaliyyətin sistemli şəkildə davam etdirilməsini tələb edib.

Həmçinin, cinayətkarlığa qarşı mübarizədə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsinin, asayişin və təhlükəsizliyin daha etibarlı qorunmasının, orqan və hissələrdə qanunçuluğun möhkəmləndirilməsinin, bu mühüm istiqamətlərdə fəaliyyətin təşkilinə nazirliyin aparatının struktur qurumlarının, ərazi orqanların və nizami polis hissələrinin rəhbərliyinin böyük məsuliyyət hissi ilə yanaşmasının, cinayətlərin qarşısının vaxtında alınması, açılması funksiyalarının ciddi nəzarətdə saxlanılmasının və layiqincə həyata keçirilməsinin vacibliyini iştirakçıların nəzərinə çatdırıb. Eyni zamanda, qeyd edilib ki, şəxsi heyətin Heydər Əliyev ideallarına sədaqət ruhunda tərbiyə olunması işi davamlı aparılmalı, vətəndaşların müraciətlərinə baxılmasına, qəbuluna daim xüsusi həssaslıqla yanaşılmalı, cinayətlərdən zərər çəkmiş şəxslərin hüquqlarının bərpası ilə bağlı məsələlərin həllində hər zaman operativlik göstərilməlidir. İnsanların hüquqları, azadlıqları, qanuni mənafeləri yüksək səviyyədə qorunmalı, bu iş bütün struktur qurumlarda rəhbər heyətin şəxsi nəzarəti altında gündəlik həyata keçirilməlidir.

Müşavirənin yekununda nazir Vilayət Eyvazov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tələb və göstərişlərinə uyğun olaraq ölkədə vətəndaş məmnunluğunun təmin edilməsi, polisin insanların güvənc yerinə çevrilməsi, bütövlükdə cəmiyyətdə polisin nüfuzunun daha da yüksəldilməsi yönümündə fəaliyyət sistemli şəkildə davam etdirilməlidir.

*24 iyun 2019-cu il.*

# VETERANLARLA GÖRÜŞ

## BAYRAM ƏRƏFƏSİNDƏ...

**DİN-in Polis Akademiyasında Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində veteranlarla keçirilən görüş hələ bundan sonra uzun illər kursantların yaddaşında qalacaq.**

Gənclərlə görüşə gənclik həvəsi, gənclik enerjisi ilə gələn veteranlar əvvəlcə akademiyada yaradılmış şəraitlə tanış oldular.

Görüşə başlamazdan əvvəl ümummilli lider Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olan həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, dövlət himni səsləndi.

Tədbiri giriş sözü ilə akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev açdı.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov çıxışında polisin keçdiyi tarixi inkişaf yoluna nəzər saldı, bugünkü polisin cümhuriyyət yadigarı olduğunu, Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsinin dayandığını bildirdi.

Polis veteranları Adil Həsənov, Ramiz Axundov, Ələsgər Bədəlov, Kamal İmamverdiyev, Habil Alışanov müstəqilliyimizin ilk illərində erməni təcavüzünə qarşı döyüşənlərin, Vətənin səsinə səs verənlərin içində yüzlərlə polisimizin şəhidlik zirvəsinə ucaldığını, əlil və şikəst olduğunu xatırladaraq bu gün onun daha məsuliyyətlə, inamla dövlətə, xalqa xidmətindən danışdılar.

# ALİ HƏRBİ MƏKTƏBDƏ NÖVBƏTİ BURAXILIŞ

**İyunun 21-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin məzunlarının ikinci buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

Əvvəlcə Ali Hərbi Məktəbin döyüş bayrağı sıra meydanına gətirilib. Sonra ümummilli lider Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçmiş hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın dövlət himni səsləndirilib.

Nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov təntənəli mərasimdə çıxış edərək Ali Hərbi Məktəbin ikinci buraxılışının qoşunların həyatında ən əlamətdar günlərdən biri olduğunu bildirib.







O deyib ki, milli hərbi kadrların hazırlanması istiqamətində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirməkdədir. Məhz Daxili Qoşunların kadr potensialının daha da gücləndirilməsi məqsədilə dövlət başçısının 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta İxtisas Hərbi Məktəbinin bazasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi yaradılıb.

Qeyd olunub ki, ölkəmizdə aparılan quruculuq işləri və islahatlar Daxili Qoşunların hərbi hissələri ilə bərabər Ali Hərbi Məktəbin də inkişafına təkan verib, müasir tələblərə cavab verən kadr potensialı formalaşıb, zəruri maddi-texniki tədris bazası yaradılıb. Fəaliyyətin müasir standartlara uyğun təşkili məqsədilə hal-hazırda Ali Hərbi Məktəbdə kompüterləşdirilib, zəruri texniki və əyani vasitələrlə tam təchiz olunmuş auditoriyalar, siniflər, fənn kabinetləri, təlim şəhərcikləri yaradılıb. Gələcəyin zabitlərinin intellektual səviyyəsinin yüksəldilməsində böyük əhəmiyyət kəsb edən kitabxana, xüsusi guşələr və xarici dil mərkəzi fəaliyyət göstərir.

Ali Hərbi Məktəbin yaradılmasında və sonrakı fəaliyyətində Türkiyə Respublikası Jandarm Komandanlığının zabit heyətinin böyük əməyi olub. Hazırda qardaş ölkənin təcrübəli zabitlərindən ibarət pedaqoji heyət yüksək ixtisaslı zabit kadrların hazırlanmasında fəal iştirak edir və əminliklə demək olar ki, bu təhsil müəssisəsi inkişaf etmiş dövlətlərin analoji təhsil ocaqları ilə rəqabət aparacaq səviyyədədir.

Daxili Qoşunlar üçün yüksək ixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə, o cümlədən təntənəli mərasimdə iştirak edən ölkənin Jandarm və Sahil Təhlükəsizlik Akademiyasının rəisi, general-leytenant Hüseyin Kurtoğluna təşəkkürünü bildirən nazir müavini Ş.Məmmədov əməkdaşlığın bundan sonra da genişlənəcəyinə və inkişaf etdiriləcəyini bildirib.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran general-leytenant Şahin Məmmədov onları əlamətdar hadisə münasibətilə təbrik edib, bu təhsil ocağında komandir peşəsinə yiyələnməklə gənc zabitlərin liderlik, cəsurluq, fədakarlıq, dürüstlük kimi keyfiyyətlər qazandıqlarını, peşələrini sevən, müasir düşüncəyə sahib zabitlər kimi formalaşdıqlarını xatırladaraq onların artıq hazırlıqlı və peşəkar hərbçilər kimi Daxili Qoşunların sıralarında xidmətlərini uğurla davam etdirəcəklərini qoşunların döyüş ənənələrinə sadiq qalacaqlarına əminliyini bildirib.

Daha sonra Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirmiş iki məzuna – Rafiq Mikayılova və Vaqif Abadova fərqlənmə diplomları və «leytenant» hərbi rütbələri paqonları təqdim edilib.

Gənc zabit R.Mikayılov "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Döyüş bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Ali Hərbi Məktəbin marşı ifa edilib.

Sonda şəxsi heyət təntənəli marşla tribunanın qarşısından keçib.

# AZƏRBAYCAN ORDUSU

## İKİ ƏSRİN BİRİNCİ İLİ

**Geostrateji mövqeyinə görə böyük ölkələrin maraqlarının kəsişdiyi Azərbaycanda Demokratik Respublikanın yarandığı gündən dövlətçiliyin mühüm atributu sayılan nizami ordu quruculuğu istiqamətində addımlar atıldı. 1918-ci il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Çünki müstəqil ordusu olmayan dövlətin milli dövlətçiliyi həmişə yadellilərin təhlükəsi altında yaşamağa məhkumdur.**



Beləliklə, bir ay sonra-26 iyun 1918-ci ildə Gəncədə fəaliyyət göstərən Milli Şura Azərbaycan Milli Ordusunun yaranması haqqında qərar qəbul etdi və 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Dövlət büdcəsinin 24 faizi hərbi məqsədlərə yönəldildi. Avqustun 1-də isə Hərbi Nazirlik təsis olundu.

Azərbaycanın ilk müdafiə naziri Xosrov bəy Sultanov idi. Sonra onu general Səməd bəy Mehmandarov əvəzlədi. General-leytenant Əlağa Şıxlinski isə nazir müavini təyin edildi. Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə paytaxtı və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi.

O zaman qardaş Türkiyə Azərbaycan dövlətinə ordunun yaradılmasında mühüm dəstək verdi.

SSRİ dövründə azərbaycanlıların hərbin sirlərinə yiyələnməsinə müxtəlif maneələr yaradılırdı. Azərbaycandan orduya xidmətə çağırılan gənclər bilərəkdən inşaat batalyonlarına göndərilirdilər. II Dünya müharibəsindən sonrakı dövrdə də azərbaycanlılara qarşı soyuq münasibət davam etdirilirdi. Bu proses ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinə qədər davam etdi. 1967-ci ildə təhlükəsizlik orqanlarına rəhbər təyin olunan ulu öndər hansısa bir şəkildə ölkənin ordu potensialını qaldırmağın vacibliyini bilirdi. Amma dövr, sovet nomenklaturası bu addımların atılmasına, hərbi məktəblərin açılmasına və azərbaycanlıların peşəkar səviyyədə ordu sıralarına qatılmasına imkan vermirdi. Müdrik rəhbər nə qədər çətin də olsa bu prosesin əsasını qoydu. 1973-cü ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradıldı.

Güclü hərb ənənəsi olsa da ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmiz bu sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan gənc dövlətin qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, siyasiləşməyə son qoyuldu. Ümummilli lider Heydər Əliyev hakimiyyəti dövründə Prezident və Ali Baş Komandan kimi ordunun qüdrətli olmasına xüsusi diqqət yönəltdi.

*Ardı 3-cü səhifədə.*



*Əvvəli 2-ci səhifədə.*

# AZƏRBAYCAN ORDUSU
## İKİ ƏSRİN BİRİNCİ İLİ

Onun 22 may 1998-ci il sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq, hərbi imkanları da genişlənir.

Əsası ulu öndər tərəfindən qoyulan Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi bu gün Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf dövrünü yaşayır. Azərbaycan ordusu hər an düşmən işğalında olan ərazilərimizi azad etmək qüdrətindədir.

Ölkənin güclənən iqtisadiyyatı ordu sistemində müasirləşməyə, yeniləşməyə yol açıb. İstər hərbi sahədə çalışan insanların sosial problemləri, istərsə də texniki təchizatın inkişaf etdirilməsi dövlətimiz, onun rəhbəri tərəfindən hər zaman diqqətdə saxlanılır. Büdcədən hərbi xərclərə ayrılan vəsaitin həcminin dəfələrlə artırılması ölkəmizin ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi, işğal altında olan ərazilərimizin azad olunması istiqamətində hər an qətiyyətli addım atmağa hazır olduğunu söyləməyə imkan verir.

Dövlət başçısı Azərbaycanın məsələsinin diplomatik və siyasi çərçivədə həllində maraqlı olan tərəf olduğunu, ancaq, eyni zamanda, bütün başqa variantlara da hazır olduğunu bildirib. "Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq. Siyasi, diplomatik, iqtisadi, lazım gəlsə, hərbi yolla məsələnin həllinə nail olacağıq",-deyən Ali Baş Komandan qəti və dəyişməz mövqeyini dəfələrlə nümayiş etdirib.

*İnformasiya bölməsi*

# XALQIN DƏSTƏYİ SABİTLİYİN DƏ, UĞURLARIN DA TƏMİNATÇISIDIR

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda bu məqam xüsusilə vurğulandı. Və qeyd olundu ki, bütövlükdə son 15 ildə iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Ölkəmizdə çox böyük infrastruktur layihələri icra edilir, insanların rifah halı yaxşılaşır, sabitlik etibarlı qorunur. Deməli, biz düzgün yoldayıq və onun alternativi yoxdur.**

**Əvvəli ötən sayımızda.**

Bu ilin əvvəlindən ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilib. Onların arasında VII Bakı Qlobal Forumunu qeyd etmək lazımdır. Bu, dünya miqyasında gün ən mötəbər forumlardan biridir. Forumda 50 ölkəni təmsil edən 500-dən çox qonaq iştirak etmişdir. Onların arasında 50-yə yaxın fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısı vardı. Forum həm intellektual potensialına, həm də müzakirə olunan məsələlərə görə doğrudan da seçilən tədbirlərdən biridir.

Bundan başqa, Bakıda OPEC+ görüşü keçirilmişdir. Azərbaycan nəinki bu təşəbbüsün iştirakçısıdır, hətta bu təşəbbüsün müəlliflərindən biridir. Bu il Cənub Qaz Dəhlizinin Məşvərət Şurası ənənəvi olaraq, ölkəmizdə keçirilib. Bu görüşün də çox böyük mənası var. Çünki hər il keçirilən bu tədbir həm imkan verir ki, görülmüş işlərə nəzər salınsın və ən önəmlisi, görüləcək işlər haqqında fikir mübadiləsi aparılsın, birgə fəaliyyət planı tərtib edilsin.

Uğurla həyata keçirilən iqtisadi islahatlar, regionların sosial-iqtisadi inkişaf proqramları və digər cəsarətli addımlar Azərbaycanda nəhəng infrastruktur layihələrinin reallaşmasına, iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşlarının əhəmiyyətli dərəcədə artırılmasına gətirib çıxarmışdır. Beləliklə, gələcəkdə turizmin, kənd təsərrüfatının və qeyri-neft sektorunun digər sahələrinin inkişafını təmin edəcək möhkəm təməl bərqərar olunmuşdur. Dünya bazarlarında neftin qiymətinin 4 dəfəyə qədər aşağı düşməsi ilə yaranan dünya iqtisadi böhranı və bu böhrandan ölkəmizin qısa müddətdə çıxaraq iqtisadi artımı yenidən təmin etməsi məhz bu möhkəm təməl sayəsində mümkün olmuşdur.

Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Qars, Astara (Azərbaycan)-Astara (İran), SOCAR Polymer, SOCAR Karbamid kimi nəhəng layihələr məhz ötən dövrdə sona çatdırılmış və fəaliyyətə başlamaqla Azərbaycan iqtisadiyyatına öz töhfəsini verməyə davam etmişdir. İcbari tibbi sığorta sistemi pilot variantda tətbiq edilmiş, uğurlu nəticələr əsas götürülərək müvafiq qanunlarla 2020-ci ildən bütün ölkədə tətbiqi nəzərdə tutulmuşdur. İşsizlikdən Sığorta Fondu yaradılmış, məşğulluq strategiyası qəbul edilmiş, ünvanlı sosial yardımın əhatə dairəsi genişləndirilmiş və özünüməşğulluq proqramlarının icrasına başlanılmışdır.



Bu ildən başlayaraq, şəhid ailələrinə birdəfəlik ödəmə verilmiş, minimum əməkhaqqı, minimum pensiya, tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırılmış, qaçqınlar və məcburi köçkünlər də daxil olmaqla, bütün növ müavinətlər 100 faiz həcmində artırılmışdır. Bu göstəricilər iqtisadi göstəricilərdə də öz əksini tapır. İllik inflyasiya göstəricisi 2016-cı ildəki 12,4 faizdən 2018-ci ildə 2,3 faizə qədər enmiş, strateji valyuta ehtiyatları 2016-cı ildəki 37,9 milyard dollardan 2019-cu ildə 46,7 milyard dollara qalxmışdır. Büdcə xərcləri 2016-cı ildəki 17 milyard 800 milyon manatdan 2019-cu ildə 25 milyard 200 milyon manata qədər artmışdır. İlk dəfə olaraq, qeyri-neft sektoru üzrə mal və xidmətlərin ixracında əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur.

İslahatlar, həyata keçirilən iqtisadi canlanma təkcə qeyri-neft məhsullarının ixracında bir milyard dollarlıq artımla nəticələnmişdir. Nominal ümumi daxili məhsulun göstəricisi isə 2015-ci ildəki 54 milyard manatdan 2018-ci ildə, demək olar ki, 80 milyard manatadək artmışdır.

Azərbaycan xalqının rifahına yönəldilən bu islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən də çox diqqətlə izlənilir, təhlil olunur. Dünya Bankının "Doing Business" hesabatında da Azərbaycan Respublikası 2016-cı ildəki 63-cü yerdən 2019-cu ildə 25-ci yerə yüksəlməyə nail olmuşdur.

Azərbaycan ilin əvvəlindən bütün sahələrdə uğurla inkişaf edir. Sosial məsələlər arasında, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu il artıq 810 məcburi köçkün ailəsi yeni müasir qəsəbəyə köçürülür.

**Ardı var.**

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Yaş artıb, ömür azalsa da...



-*"Ay ev yiyəsi"* səsinə qapıya özü çıxdı.

*-Kim lazımdır?*

*-Məmmədrza müəllim.*

*-Mənəm.*

*-"Mübariz keşikdə" qəzetindən gəlmişəm...*

Bunu deyəndə bir anlıq duruxdu və handan-hana dilləndi: "Düz, ***60 il, bəlkə də daha da çoxdan qəzetdə barəmdə yazı getmişdi. Onda yaxşı vaxtlarım idi. İndi də yada salmısınız, amma heyif ki, illər ötüb..."***

Unudulduğunu zənn edirmiş. Bunu baxışlarından hiss etdim. "Niyə axtarmırdınız" desəydi, əlbəttə ki, haqqı vardı...

"Yaşı doxsanı keçsə də yaddaşını, şaxlığını qoruyub-saxlamış bir polis veteranı var. İmkan tapsanız, onunla görüşün, xatirində qalanları yazıya alın.", - deyən BMİ Sumqayıt Şəhər Mühafizə İdarəsinin rəisi, polis polkovniki Akif Qorçubəyliyə cavabım belə oldu: "Azərbaycan Polisinin yaranmasının 101-ci ildönümü ərəfəsində qocaman həmkarımızla görüşüb bir könül yazısı hazırlayacağam..."

Nar ağacının altında mənə yer göstərdi. Ağ saçları, titrək əlləri ömrü hədər vermədiyini göstərirdi. Sinəsi doluydu. Çantamdan çıxardığım qəzetləri görəndə bir az da kövrəldi: ***"Yaşıd olarıq, amma qəzet heç qocalmır",*** - dedi. Mən də söz altında qalmadım: ***"Sizdən altı bayram kiçikdir".*** Araya çökən sükutu quşların səsi pozdu...

"Bu ağacları özüm əkmişəm. Hər gün qulluq edirəm. Yayın qorabişirənində kölgəsi nəyə desən, dəyər. Arada ata-baba yurduna getsəm də bu ağaclar, bu gül-çiçək üçün darıxıram, dözə bilmirəm..."

Onun bu sözləri məni də duyğulandırdı və:

***50-nin sevincini,***
***60-da qəm udur.***
***70-i haqlayanda,***
***Ömür bizi unudur...***
***80, 90 bir yuxu,-***

deyirdim ki, davamını tamamlamağa qoymadı: "Quşun qanadı kürəyində, insanın qanadı ürəyindədir. Qırıldımı, uça bilməyəcək",- dedi...

***"Mən heç vaxt "uçan insan" görmədim",***-deyəndə üzümə baxıb gülümsədi: ***"Mənim yaşıma çatanda, yan-yörəni nəvələr bürüyəndə "uçmağın" necə olduğunu biləcəksən",***- deyib illərin o üzünə boylandı.

***Polis veteranı Məmmədrza Hüseynov*** 1928-ci ildə Şabranın Gönçü kəndində doğulub. Saçlarına ata-anasından çox dağların mehi sığal çəkib. Əlinin suluxlayan yaralarının göynərtisindən yata bilməyəndə kitab oxuyub. Qoyun-quzu nobatına da gedib, qayakürək kişilərlə kərənti çəkib. Hər işin çətini düşüb qismətinə.

Hərbi xidmətdən 1952-ci ildə tərxis olunduqdan sonra elə həmin il də Bakıya gəlib. Uca boyu, enli kürəyi, qaya parçası kimi qabarlı əlləri və bir də səmimiyyəti yolunda mayak olub. Onu daxili işlər orqanlarına götürüblər. Qarşısına həmişə yaxşı adamlar çıxıb. Özü də yaxşılıq etməkdən bezməyib, usanmayıb. Müharibədən sonrakı illərdə milisin sıralarında xidmət etmək hünər istəyirdi və hər oğul da buna tab etmirdi. Bir tərəfdən sosial durumun ağırlığı, yaşamağın çətinliyi, digər tərəfdən də cinayətkarlığın tüğyan etməsi, sözün əsl mənasında, zəhmət, fədakarlıq tələb edirdi. Rəhbərliyin təkidi ilə sənədlərini N. Rizayev adına Orta İxtisas Milis Məktəbinə təqdim etdi milis kiçik leytenantı Məmmədrza Hüseynov.

Məktəbi bitirdikdən sonra sahə müvəkkili vəzifəsinə təyin olundu. Düz 32 il eyni rayonda, eyni ərazidə və eyni vəzifədə xidmət etdi. Deyir ki, bir sahə müvəkkili kimi hər zaman camaatın xeyrində-şərində iştirak edib. "Milis əlaçısı" olub. SSRİ DİN-in "Şərəf nişanı" ilə təltif olunub. 1981-ci ildə milis kapitanı rütbəsində təqaüdə çıxıb. Sonralar bir çox vəzifələrdə işləyib. Ona həmişə güvəniblər, inanıblar və hörmət ediblər.

Yeddi qızın atası, on altı nəvənin, yeddi nəticənin babasıdır.

Bu günümüzdən, xüsusilə də polisə yaradılan şəraitdən razılıq edir. Sabitliyin, əmin-amanlığın ölkəmizin daha da qüdrətlənməsinə, abadlaşmasına, insanların rifah halının yaxşılaşmasına xidmət etdiyini deyir. Bizlərə tövsiyəsi isə budur: Zəhmətdən, öyrənməkdən qorxmayaq, işimizin peşəkarı olaq, darda olanın köməyinə tələsək, ən ümdəsi, insanlarla ünsiyyətdən qaçmayaq, çünki...

Yenə də xatirələr onu uzağa-ötən, amma itməyən, ömründən silinməyən illərə aparır.

Xidmətə yenicə başlayıbmış. Əhali ilə xoş ünsiyyətinin nəticəsi kimi xidməti ərazisindəki evlərdən birində baş verən oğurluğun qarşısını alıb, cinayəti törədəni yaxalayıb. Həmin cinayətin izi ilə bağlı qalmış daha 27 cinayətin üstü açılıb. Sözsüz ki, bu xidmətinə görə mükafatlandırılıb...

*Hafiz Təmirov,*
*polis mayoru*

**Redaktordan:** ***Ömür belədir, yaş artıb ömür azaldıqca həyat daha şirin olur. Bu şirinliyi nəvələr, sonra nəticələr daha da artırır. Məmmədrza Hüseynovda da, maşallah, belə şirinlərin sayı çoxdur - Leyla, Məmməd, Ülvü, Rauf...***

***"Toylarını görək", deyir ağsaqqal... Biz də istərdik, nəsib olsa...***

# ELAN

**Daxili İşlər Nazirliyi Tibb İdarəsinə bilavasitə tabe olan A.N.Heydərov adına Respublika Hospitalının nəzdində Reabilitasiya Mərkəzində vakant olan 2 həkim-fizioterapevt və 2 tibb bacısı vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

***Həkimlər üçün müsabiqədə*** Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, fizioterapiya və tibbi bərpa ixtisası üzrə rezidentura təhsili almış, ixtisası üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqədə iştirak edə bilərlər.

***Tibb bacıları üçün müsabiqədə*** Azərbaycan Respublikasının dövlət orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, yaşı 25-dən yuxarı olmayan, fizioterapiya və tibbi bərpa ixtisası üzrə azı 3 il praktiki təcrübəyə malik, boyu 160 santimetrdən aşağı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə»də müəyyən olunmuş şərtlərə cavab verən, ***Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları müsabiqədə iştirak edə bilərlər.***

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu ilin iyun ayının 15-dən iyul ayının 15-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin **medical@ mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**-Şəxsiyyət vəsiqəsi**
**-Təhsil haqqında diplom**
**-Əmək kitabçası**

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012) 590-20-59; (012) 590-20-94.**

**Daxili İşlər Nazirliyi Tibb İdarəsinin müalicə-profilaktika müəssisələrində vakant olan 7 tibb bacısı, 2 rentgen-laborant və 1 tibb qeydiyyatçısı vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan Respublikasının dövlət orta-ixtisas təhsil müəssisələrində tibb bacısı və ya feldşer ixtisası almış, yaşı 25-dən yuxarı olmayan, ixtisası üzrə azı 3 il praktik təcrübəyə malik, boyu 160 santimetrdən aşağı olmayan, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, ***Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.***

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il iyun ayının 15-dən iyul ayının 15-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin **medical@mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**-Şəxsiyyət vəsiqəsi**
**-Təhsil haqqında diplom**
**-Əmək kitabçasının surəti**

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə veriləcək və qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-20-59;**
**(012) 590-20-94.**

# BU DƏFƏ "ALINMADI"...

***Dəyanət Əkbərov narkotik maddələrin qəbulu və satışı ilə çoxdan məşğul idi. Hətta bir neçə il "yatmışdı"da. Yəni ki, təcrübəsi vardı bu sahədə. Polisdən qorunmağı da yaxşı bilirdi.***

***Hər adama "mal" vermәzdi. Yüz ölçüb, bir biçərdi. Sayıqlığını itirmirdi. Vəziyyətdən elə sivişib çıxardı ki, özünə "əhsən" deyirdi.***



Ancaq budəfəki "mal" o birilərinə bənzəmirdi. Hər deyəndə belə şey ələ düşməzdi. Hər adam da ürək eləyib onu əkib-becərməzdi. Dəyanət isə ürək eləmişdi. "Təcrübəsi"nə arxalanmışdı, yəqin. Ancaq...

Sabirabad RPŞ-nin əməkdaşlarını görəndə özünü harasa tələsirmiş kimi göstərib tox tutmağa çalışsa da bir şey çıxmadı. Onu saxladılar. Üstündən heç nə tapılmadı. Yoxlama zamanı Dəyanətin keçirdiyi həyəcan polis işçilərinin diqqətindən yayınmadı.

*-Harada gizlətmisən, özün ver!* – dedilər.

Dəyanət onların üstünə bozardı:

*-Nəyi verim? İndicə yoxlamadınız? Olsaydı, çıxardı.*

*-Dəyanət, bizi incitmə.*

*-Siz məni incidirsiz. Dinc qoymursunuz. Daha bəsdir!* – Dəyanət hücuma keçmişdi.

Polis əməkdaşları isə onun qara-qışqırığına əhəmiyyət vermədilər və evə, həyətə baxış keçirdilər. Həyətdə plastik və şüşə qablarda torpağa basdırdığı 3 kiloqram 225 qram qurudulmuş narkotik vasitənin çıxarıldığını görəndə sahibini titrətmə tutdu.

Faktla bağlı cinayət işi qaldırılıb. İstintaq gedir. Biz isə onu deyə bilərik ki, belə çirkli işlərlə, başqalarının göz yaşları hesabına özünə xoşbəxtlik, gün-güzəran yaratmaq istəyənlər möhkəm yanılırlar. Haram tikəni polis udmağa qoymadı...

***Ruhiyyə Əliyeva,***
***polis baş leytenantı***

## 2019-cu ilin II yarısı üçün "Mübariz keşikdə"yə öz qəzetinizə abunə olmağa tələsin!



**Azərbaycan Polisinin peşə bayramı münasibətilə DİN İdman Cəmiyyətində yeniyetmə və gənclər arasında müxtəlif idman növləri üzrə açıq birinciliklər keçirilir.**

# ƏLAMƏTDAR GÜNƏ
## HƏSR OLUNMUŞ YARIŞ



Bu sırada iyunun 22-də cüdo üzrə yeniyetmələr və gənclər arasında birincilik keçirilib. Birincilikdə müxtəlif yaş qruplarında və çəki dərəcələri üzrə 100-ə yaxın idmançı öz gücünü sınayıb.

Açılış mərasimində çıxış edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftaxetdinova Azərbaycan Polisinin ulu öndər Heydər Əliyevin dövlətçilik xəttinə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasətinə həmişə sadiq olduğunu bildirib və bunun daxili işlər orqanları əməkdaşları üçün ən böyük şərəf və qürur mənbəyi olduğunu diqqətə çatdırıb. Ölkəmizin sarsılmaz təməllər üzərində formalaşmış ictimai-siyasi sabitlik şəraitində inkişafında, dövlətçiliyin qorunmasında, əsayişin mühafizəsində, Konstitusiya ilə təsbit olunmuş insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatında daxili işlər orqanlarının mühüm xidmətlərindən danışıb və ölkə rəhbərliyinin daxili işlər orqanlarına diqqət və qayğısını xüsusilə vurğulayıb.




DİN İdman Cəmiyyətinin cüdo bölməsinin baş məşqçisi Zakir Kərimovun yetirmələri yüksək fiziki və texniki bacarıq nümayiş etdirib.

Mükafatlandırma mərasimində çıxış edən İdman təlimi şöbəsinin rəisi, polis polkovnik-leytenantı İlyas Siracov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb.

Sonda qaliblərə medallar və diplomlar təqdim olunub.

***Zeyni Hüseynov,***
***polis serjantı***

# "Xəzri" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun-15 sentyabr 2019-cu il tarixlərdə mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanların əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 33,75 manat (iki nəfərlik nömrəni tək tutduqda 52,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 101,25 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 82,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 135 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 165 manat təşkil edir.

4. Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

5. 3-6 yaşda uşaqların qalması ödənişsizdir.

6. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun - 15 sentyabr 2019-cu il**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 270 manat, bir nəfər tək qaldıqda 210 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 33,75 manat | 52,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 67,50 manat | 105 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 135 manat | 210 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 manat | |

# İyunun 18-dən 24-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 136 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 66 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 165, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 10, borclu şəxs qismində axtarışda olan 52 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 20 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 21 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 82 fakt müəyyən edilmişdir.




Yanvar-mart aylarında Gürcüstanda 1300-dən çox avtomobil qəzası qeydə alınıb. Bu qəzalarda 116 nəfər həyatını itirib, 1800 nəfər yaralanıb. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyi məlumat yayıb.

Məlumatda deyilir ki, cari ilin birinci rübündə qeydə alınan avtomobil qəzalarının sayı 2018-ci ilin eyni dövrü ilə müqayisədə 500 fakt az olsa da, ölüm sayı daha çoxdur. Keçən ilin birinci rübündə qeydə alınmış avtomobil qəzalarında yaralananların sayı 2 min nəfərdən çox olub. Ölümlə nəticələnən qəzalar ən çox paytaxt Tbilisidə qeydə alınıb.

DİN qəzaların başvermə səbəblərini araşdırıb. Məlum olub ki, qəzalar ən çox avtomobillərin sərxoş vəziyyətdə və narkotik vasitələrin təsiri altında idarə olunması, yüksək sürət, ötmə əməliyyatlarının pozulması səbəbindən baş verib.

*****

***Litvada yol hərəkəti qaydalarında dəyişiklik olacaq. Ölkənin Nəqliyyat və Kommunikasiya Nazirliyi işıqforun yaşıl işığında yanıb-sönmə funksiyasının ləğv ediləcəyini bildirib. Buna səbəb yol nəqliyyat hadisələrinin sayının artmasıdır.***

***Mütəxəssislər hesab edirlər ki, yanıb-sönən yaşıl işıq qəzaların sayının artmasına gətirib çıxarır. Yeni qaydalara əsasən, yaşıl işıqdan dərhal sonra hərəkəti qadağan edən sarı və qırmızı işıqlar yanacaq.***

***İşıqforlarda yaşıl işığın yanıb-sönmə funksiyası artıq bir çox Avropa ölkələrində qadağan edilib. Hesab olunur ki, bu, sürücünün fikrini dağıdır və xüsusən, böyük yol kəsişmələrində qəzalara səbəb olur.***

***Litvada ötən il baş vermiş qəzalarda 170 nəfər həyatını itirib. Əsas səbəb kimi, piyadaların diqqətsizliyi göstərilib. Litvalılar isə yeni qaydaların tətbiqindən narazıdırlar. Onların bir çoxu hesab edir ki, ölkədə həddindən artıq çox dəyişikliklər tətbiq edilir və onlar heç də həmişə uğurlu olmur.***

*****

İspaniyada üç ölkənin – Fransa, İtaliya, və Türkiyənin hüquq-mühafizə orqanları əməkdaşlarının birgə keçirdiyi əməliyyat nəticəsində Moldova bayrağı altında üzən "ELG" gəmisində 10 ton narkotik vasitə aşkarlanıb. Səkkiz nəfər heyət üzvü olan gəmidə 350 bağlamadan ibarət həşiş aşkar edilib. Gəminin Kartakena şəhərindən 98 dəniz mili məsafədə saxlanıldığı bildirilib.

*****

ABŞ-ın Filadelfiya şəhərinin limanında 16,5 ton kokain daşıyan gəmi saxlanılıb. Bu nəhəng partiyanın dəyərinin 1 milyard dollardan çox olduğu bildirilir.

*****

***Yeni Zelandiya hökuməti əhalidən qadağan olunmuş yarımavtomat silahların satın alınmasına 136 milyon dollara yaxın pul xərcləyəcək. Bu barədə Daxili İşlər və Maliyyə nazirlərinin birgə bəyanatına istinadən məlumat yayıb.***

***Kraystçörç şəhərində məscidlərdə törədilmiş terror aktından sonra Yeni Zelandiyanın Baş naziri Casinda Ardern ölkə ərazisində yarımavtomat silahların və döyüş tüfənglərinin saxlanılmasına qadağa qoyulduğunu elan etmişdi. Aprel ayında Yeni Zelandiya parlamenti bu barədə müvafiq qanun qəbul edib.***

***Məlumata görə, Yeni Zelandiya büdcəsindən silahların əhalidən satın alınması üçün 190 milyon Yeni Zelandiya dolları (təxminən 124,7 milyon ABŞ dolları), silahların toplanma sxeminin hazırlanmasına isə əlavə 18 milyon Yeni Zelandiya dolları (təxminən 11,8 milyon ABŞ dolları) ayrılacaq.***

*****

İndoneziya hökuməti ölkə polisinə Votsap messencer proqramında yazışmaları izləmək hüququ verən planı dəstəkləyib. Bu prosesdə əsas diqqət qrup yazışmalarına veriləcək. Qərar İndoneziya cəmiyyətində gərginliyin artması ilə əlaqələndirilib.

***C.Natiq***

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00